**Brüssel görüşü və Ermənistanın mövqeyi**

**Türk-İslam Araşdırmaları Mərkəzinin sədri, Xəzər Universitetinin müəllimi Telman Nüsrətoğlunun "Brüssel görüşü və Ermənistanın mövqeyi" başlıqlı yazısı**

07.04.2022 ~ 11.04.2022




Dünyanın yeni geosiyasi konfiqurasiya ərəfəsində olduğu hər keçən gün bir az daha qabarıq şəkildə görünməkdədir. Burada xüsusiylə Rusiyanın Ukraynanı işğal etmə təşəbbüsü bağlamında daha da ön plana çıxan güc amili, hərbi-siyasi paradiqmanın hökmranlığıyla birlikdə iqtisadi müharibələrin də şiddətlənməsini qeyd etməliyik. Beynəlxalq münasibətlərin hazırkı böhranlı vəziyyətində mürəkkəb məsələlərin həllində, mövqe mübarizələrində güc amili təsirini artırarkən burada da iki anlayış özünü büruzə verməkdədir. Ədalətə, beynəlxalq hüququn prinsiplərinə dayanaraq pozulmuş hüququnu, ərazi bütövlüyünü təmin etməyə çalışan, işğalı ortadan qaldırmaq istəyən iradə və yeni  müstəmləkə proyektlərini icra etmək üçün hərbi yola baş vuran mərkəzlər.

44 günlük müharibədə əldə etdiyi uğurla Azərbaycan hələ ki, yeni dünya nizamı reallığında, qarşı duran qütblər işğalçı Ermənistana dəstək məsələsində bənzər yanaşmalar sərgilərkən, çətin  hərbi - diplomatik həmlələrlə haqqını alaraq ədalətə dayalı güc modelini ortaya qoyan ən önəmli ölkələrdən biridir. Ölkə

rəhbərliyinin həyata keçirdiyi düşünülmüş siyasət və milli səfərbərlik halıyla birlikdə bu uğurun əldə edilməsində yüksələn bir güc olaraq Türkiyenin dəstəyi də həlledici olmuşdur. BMT-nin qətnamələrinə rəğmən Minsk Qrupunun otuz ilə yaxın bir dövr ərzində davam etdirdiyi nəticəsiz danışıqların Qarabağ və ətraf rayonlardakı Erməni işğalına son verə bilməməsi Azərbaycanı hərbi yola baş vurmağa məcbur etmişdir. 44 günlük müharibə nəticəsində əldə edilən zəfər regional güc balansını dəyişdirməklə yanaşı qlobal güc mübarizələrinin gedişinə də təsir edən amil olmuşdur.

Yuxarıda da qeyd etdiyimiz kimi hərbi güclə birlikdə ikinci istiqamət olaraq iqtisadi mübarizələr amilində enerji təhlükəsizliyi, güzərgahlar və yollar kritik hala gəlirkən Azərbaycan və Türk Dünyasının əhəmmiyəti daha da artmış, xəyalpərəst yayılma siyasətiylə özünü bütün strateji proyektlərdən təcrid edərək Rusiyanın for-postu halına gətirmiş Ermənistanınsa önəmi daha da azalmışdır. İndi Erməni kartının Türk varlığına qarşı istifadə edildiyi XIX - XX əsrlərin siyasi şəraitindən fərqli olaraq Çin-Amerika, kollektiv Qərb-Rusiya qarşıdurması müstəvisində mübarizə daha böyük və fərqli reallıqlar şəraitində davam etməkdə, mübarizə aparan tərəflərin Türkiyə və Türk dünyasına olan ehtiyacı hər gün bir az daha artmaqdadır. Başqa bir yazının mövzusu olsa da TDT-nin də güc mərkəzlərindən biri olaraq yeni qurulan dünyada öz hesapları və gündəminin olduğunu da ifadə etmək lazımdır.

Belə bir siyasi şəraitdə Türkiyə-Azərbaycan ittifaqı zəfər sonrası Ermənistanla davam edən danışıqlarda ərazi bütövlüklərinin qarşılıqlı olaraq tanınması şərtiylə sülh və sabitliyi qalıcı hala gətirməyə çalışsa da daxili siyasi vəziyyəti, xarici ölkələrdən asılılığı və şovinizm hissləriylə zəhərlənən bir cəmiyyət modeliylə Ermənistan yeni reallıqları qəbul edərək böyük sülh sazişi imzalamağa hazır görünnməməkdədir. Paşinyan Ermənistan üçün bunun nə qədər qaçınılmaz zərurət halına gəldiyini anlasa da xüsusiylə iqtidarını qoruma həvəsi, daxili rəy amili və Rusiya faktoru onu qətiyyətli addımlar atmaqdan çəkindirir. Bu mənada Avropa İttifaqının təşəbbüsüylə Brüsseldə dövlət başçılarının ikinci görüşü başlarkən Ermənistan müxalifətinin də Yerevanda etiraz mitinqlərinə başlaması, orada səslənən absurt və revanşist tələblər, Paşinyanın istefasının tələb edilməsi, bununla paralel olaraq Ermənistan ordusunun sərhədlərdə həyata keçirməyə çalışdığı provakasiyalar Cənubi Qafqazdakı münaqişə vəziyyətinin heç bitməməsini istəyən müstəmləkə həvəslilərinin nə qədər zəyifləsələr də kimliklərini görmək

baxımından mühümdür. Bu qüvvələr sözdə soyqırım yalanının sürdürülməsi istəkləri və ya az sayılı  Qarabağ ermənilərinə "müstəqillik" tələb edən çıxışlarıyla Türkiyə və Azərbaycanla normallaşmanın yoluna minalar döşəyərək (yeri gəlmişkən mina döşəmə məsələsində onlar çox mahirdir) ölkələrini sanksiyalar altında özü iqtisadi böhran yaşayan Rusiyaya məhkum etmək istəyirlər. Zəngəzur dəhlizinin açılmasına qarşı çıxmaq, Xankəndindəki separatizm qalıqlarını dəstəkləmək yox Azərbaycan torpaqlarında yaşayan az sayılı ermənilərin öz ölkələrinin qanunlarına tabe olaraq sülh şəraitində yaşamalarına kömək etmək indi Ermənistan üçün ən ağıllı yoldur. Köçəryan, Sarkisyan kimi gündən-günə çəkisini, əhəmmiyətini itirən, Erməni xalqını yeni fəlakətlərə sürükləyən liderlərin qurduqları yeni oyunlara baxmayaraq Paşinyan özündə güc taparaq Azərbaycan və Türkiyənin ərazi bütövlüklərini tanıyan sülh sazişinə imza atmalı, ən azından sərhədlərin demilitasiya və demarkasiyası məsələsi, Zəngəzur dəhlizinin açılması kimi istiqamətlərdə Brüsseldə ciddi nəticələr olmalıdır. Bir neçə gün sonra Moskvada Putin- Paşinyan görüşünün olacağı da məlumdur. Əlbəttə bu görüşdə əldə edilən razılaşmalar Ermənistan bölgə  siyasətinin bundan sonra hansı istiqamətə doğru inkişaf etməsində həlledici olacaqdır. Ancaq Türkiyə-Azərbaycan ittifaqının ortaya qoyduğu güc,  Bakının bundan sonra Rusiya sülhməramlılarının Qarabağdakı müvəqqəti nəzarət bölgəsində hər hansı bir Erməni silahlı dəstəsinin varlığına dözümsüz yanaşacağını nümayiş etdirməsi, Rusiyayla münasibətlərin spesifikası münaqişə məsələsində Ermənistan dövləti üçün yolun sonuna gəlindiyini ortaya qoymuşdur.